**Azərbaycan Texniki Universitetinin 2023-cü ildə keçirilən Elmi Şura iclaslarının**

**QƏRARLARI**

| **№** | **Tarix** | **Qəbul olunan qərarlar** |
|---|---|---|
| 1 | 10.02.2023 | 1. Türkiyə Respublikasında baş verən zəlzələ ilə əlaqədar yardım məqsədi ilə Azərbaycan Texniki Universitetinin büdcəsindən 100 (yüz) min manat miqdarında vəsait ayrıldı.<br>2. Könüllülük əsasında universitet əməkdaşlarının əmək haqlarından müvafiq vəsaitin tutulması həyata keçirildi. |
| 2 | 15.02.2023 | 1. 2022/2023-cü tədris ilinin qış semestrində təhsilin keyfiyyətinin yüksəldilməsi üçün tədbirlər planı işlənib hazırlandı.<br>2. Diferensial əmək haqqı sisteminin tətbiqi ilə bağlı təqdim edilən məlumatlar təsdiq edildi.<br>3. AzTU-da nəşr işinin aktivləşdirilməsi üçün Tədqiqat və inkişaf şöbəsi tərəfindən uyğun beynəlxalq elmi jurnallarda dərc işinə dəstək verilməsi təmin edildi.<br>4. AzTU tərəfindən təşkil olunan Beynəlxalq konfrans materiallarının beynəlxalq elmi bazalara daxil edilməsi üçün lazımi fəaliyyətlər həyata keçirildi.<br>5. Universitet Sənaye İşbirliyi və Ömürboyu Təhsil Mərkəzi ilə birlikdə Universitetin yeni elmi tədqiqat istiqamətləri müəyyən edildi, magistr və doktorantların Layihə əsaslı tədqiqat fəaliyyətinə keçirilməsi qaydaları işlənib hazırlandı.<br>6. KOBİA və Azərbaycan Texniki Universitetinin birgə fəaliyyəti əsasında universitetdə model müəssisə yaradıldı.<br>7. Azərbaycan Texniki Universitetinin 2023-cü il üçün prioritet istiqamətlər üzrə Fəaliyyət planı təsdiq edildi.<br>8. Azərbaycan Texniki Universitetinin strukturuna daxil olan struktur vahidlərinin tədricən özünütəminata keçirilməsi təmin edildi.<br>9. Azərbaycan Texniki Universiteti ilə Türkiyənin "Bilişim Vadisi" arasında anlaşma müqaviləsi imzalandı.<br>10. Azərbaycan Texniki Universitetinə qəbul imtahanlarında 600-dən çox bal toplamış tələbələrə əlavə təqaüdlərin verilməsi həyata keçirildi. |

| | | |
|---|---|---|
| | | |
| 3 | 19.05.2023 | 1. Alman mühəndislik fakültəsinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı müvafiq qərarlar qəbul edildi.<br>2. Təmir-tikinti və istismar şöbəsi, İctimaiyyətlə əlaqələr şöbəsi, Tədris şöbəsi, Elmi katiblik, AzTU TV, Tələbə-rektor haqqında əsasnamələr təsdiq edildi. |
| 4 | 09.06.2023 | 1. Azərbaycan Texniki Universitetinin Elmi Şurasının reqlamenti təsdiq olundu.<br>2. 2023/2024-cü tədris ili üçün Akademik Təqvim təsdiq edildi.<br>3. "İxtisas rəhbəri" pilot layihəsinin həyata keçirilməsi ilə bağlı qərar qəbul edildi.<br>4. Yüksək Təhsil İnstitutunun yeni strukturu təsdiq edildi.<br>5. Avtomatika və idarəetmə kafedrasının adı dəyişdirilərək, Mexatronika kafedrası adlandırıldı.<br>6. Mexatronika kafedrası Alman mühəndisliyi fakültəsinin tərkibinə daxil edildi.<br>7. Azərbaycan Texniki Universitetinin Xarici dillər kafedrasına ingilis dilini tədris edəcək yeni müəllimlərin qəbulu üzrə Seçim Qaydaları təsdiq edildi.<br>8. 2022-ci ildə doktoranturaya qəbul edilmiş iddiaçıların dissertasiya mövzuları və elmi rəhbərləri/məsləhətçiləri təsdiq edildi.<br>9. Magistratura səviyyəsi üzrə yeni ixtisasların (ixtisaslaşmaların) tədris planları təsdiq olundu.<br>10. Azərbaycan Texniki Universitetində "Additive Materials Processing and Applications" adlı Beynəlxalq elmi-texniki jurnal təsis olundu. |
| 5 | 12.07.2023 | 1. Kafedralarda professor seçkisi ilə bağlı qərarlar qəbul edildi.<br>2. Azərbaycan Texniki Universitetində Strateji inkişaf mərkəzi yaradıldı.<br>3. Keyfiyyətin təminatı və öyrənmə-öyrətmə Mərkəzinin adı dəyişdirilərək Keyfiyyətin təminatı şöbəsi adlandırıldı və nəzdində "Statistika və proqnozlaşdırma sektoru" yaradıldı.<br>4. Yeni materiallar və nanotexnologiyalar institutu yaradıldı.<br>5. Kibertəhlükəsizlik və Süni intellekt institutu yaradıldı.<br>6. 2022/2023-cü tədris ili üçün fəaliyyət planı təsdiq edildi.<br>7. Ali təhsilin magistratura və doktorantura səviyyələrində akademik yüklərə görə ödənişlərlə ba\ğlı qərar qəbul edildi.<br>8. Yüksək Təhsil İnstitutunda magistratura səviyyəsində (Magistr və MBA proqramları) |

| | | |
|---|---|---|
| | | tədris aparacaq müəllimlərin seçim qaydaları təsdiq olundu. |
| 6 | 13.09.2023 | 1. "AzTU-Turkish Aerospace, MGP 2023" Proqramının tam şəkildə həyata keçirilməsi məqsədilə müəyyən qərarlar verildi.<br>2. AzTU ilə Qazi Unversiteti arasında "Elektrik və elektronika" ixtisasında ikili diplom təhsili üzrə razılaşdırılmış Tədris Planı təsdiq olundu.<br>3. Hazırlıq kurslarında dərslərin təşkilinin Beynəlxalq əlaqələr şöbəsinə həvalə olunması haqqında qərar qəbul edildi.<br>4. Yüksək Təhsil İnstitutunun əsasnaməsi yeni redaksiyada təsdiq edildi.<br>5. Sosial İnkişaf Mərkəzinin əsasnaməsi təsdiq edildi.<br>6. Xarici (İngilis) dildə tədris edən müəllimlərin əməyinin stimullaşdırılması haqqında qərar qəbul olundu.<br>7. SmartTech İnnovatorlar Mərkəzi yaradıldı. |
| 7 | 07.11.2023 | 1. AzTU-nun prioritet tədqiqat istiqamətləri təsdiq edildi.<br>2. Azərbaycan Texniki Universitetin Elmi-metodiki Şurasının əsasnaməsi yeni redaksiyada təsdiq olundu və buna uyğun olaraq Elmi-metodiki Şura yenidən təşkil edildi. |
| 8 | 20.11.2023 | 1. Azərbaycan Texniki Universitetində aparılmış maliyyə yoxlamasının nəticələrinə uyğun olaraq müvafiq qərarlar qəbul edildi. |
| 9 | 27.12.2023 | 1. İnformasiya tədris mərkəzinin adı dəyişdirlərək Qiyabi və distant tədris mərkəzi adlandırıldı.<br>2. Universitet-sənaye əməkdaşlığı və ömürboyu təhsil mərkəzinin adı dəyişdirilərək Ömürboyu öyrənmə məktəbi adlandırdı.<br>3. İxtisas (proqram) rəhbəri pilot layihəsində Mühəndis fizikası, Kimya mühəndisliyi və Kompüter elmləri ixtisasları üzrə fənn rəhbərlərinin təyin olunması ilə bağlı qərar qəbul edildi.<br>4. AzTU-da hazırlanmış yeni təcrübə proqramı tətbiqinə başlanılması ilə bağlı qərar qəbul edildi.<br>5. KOICA elektron təhsil sistemində uçotun təşkili ilə bağlı qərar qəbul edildi.<br>6. Əməkdaşların əməyinin stimullaşdırılması ilə bağlı qərar qəbul edildi. |